**Fiziki şəxslərə bank xidmətlərinin göstərilməsinə dair**
**01U/23 saylı Standart Şərtlər**

Bakı şəhəri 01.10.2023-cü il

Bu Standart Şərtlər Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən 14 dekabr 2010-cu il tarixdə verilmiş 73 saylı lisenziya, Azərbaycan Respublikasının qanunvericiliyi və öz Nizamnaməsi əsasında fəaliyyət göstərən "Unibank" Kommersiya Bankı ASC (bundan sonra – Bank) tərəfindən rezident və qeyri-rezident fiziki şəxslərə bu Standart Şərtlərdə göstərilən bank xidmətləri ilə bağlı onların Bankla münasibətlərini tənzimləyir.

**ƏSAS ANLAYIŞLAR:**

**Aksept** – bu Standart Şərtləri tam və qeyd-şərtsiz qəbul etməsi barədə Müştərinin ərizəsi;
**FİN** – fərdi identifikasiya nömrəsi (vətəndaşların şəxsiyyət vəsiqəsi üzrə);
**Analoq imza** – imza edənlə şəxsi açar vasitəsi ilə əlaqələndirilmiş elektron şəkildə imza atma imkanı yaradan unikal məlumatlar başa düşülür.
Analoq imza Bank və Müştəri arasında qarşılıqlı razılaşdırılmış bütün əməliyyatların (müqavilələrin, məktubların, hesab üzrə sərəncamların, tapşırıqların, etirazların və sair imzalanması da daxil olmaqla) imzalanması üçün Bank tərəfindən Müştəriyə SMS və ya mobil əlavə vasitəsilə təqdim edilmiş, həmçinin bunlarla məhdudlaşmayaraq aşağıda qeyd olunan imzanın digər analoqları da daxil olmaqla Müştərinin şəxsi imzasının alternativi olan və eyni hüquqi nəticələrə gətirən imzadır. Analoq imza, həmçinin Müştərinin identifikasiyası üçün bir vasitə və bank alətidir və Müştərinin kağız üzərində təqdim etdiyi fiziki imza ilə eyni hüquqi qüvvəyə malikdir.
**Asan İmza** – Müvafiq dövlət orqanı tərəfindən təqdim edilmiş mobil nömrə üzərindən eyniləşdirilməyə imkan verən elektron imzadır. Asan İmza müştərinin fiziki olaraq kağız üzərində imzası ilə eyni hüquqi qüvvəyə malikdir.
**Gücləndirilmiş elektron imza** – imza sahibinin nəzarəti altında olan elektron imza vasitələri ilə yaradılan və yalnız imza sahibinə məxsus olmaqla onu identikləşdirən, əlaqəli olduğu məlumat bildirişinin bütövlüyünü, dəyişməzliyini, təhrif olunmadığını və saxtalaşdırılmadığını müəyyən etməyə imkan verən elektron imza;
**Avtorizasiya** – kartdan istifadə edilməklə əməliyyatların aparılması üçün emitentdən və ya onun xidmət olunduğu kart təşkilatından icazənin alınması;
**Bank** – 14 dekabr 2010-cu il tarixli, 73 saylı lisenziya və Nizamnamə əsasında fəaliyyət göstərən "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti, VÖEN: 1300017201.
**Bankın rəsmi internet səhifəsi** – unibank.az (bundan sonra "sayt")
**Bank sirri -** Azərbaycan Respublikasının Mülki Məcəlləsinə müvafiq olaraq bank hesabının, hesab üzrə əməliyyatlar və qalıqları, habelə müştəri haqqında məlumatları, o cümlədən müştərinin adı, ünvanı, rəhbərləri haqqında məlumatları, bank saxlancında əmlakının mövcudluğu, bu cür əmlakın sahibləri, xarakteri və dəyəri barədə məlumatlar;
**Bank hesabı** – Müştəriyə (hesabın sahibinə) açılmış hesaba daxil olan pul vəsaitini qəbul etməyi və hesaba salmağı, hesabdan müvafiq məbləğlərin köçürülməsinə və verilməsinə, hesab üzrə digər əməliyyatların aparılmasına dair müştərinin sərəncamlarının yerinə yetirilməsi üçün nəzərdə tutulmuş hesab;
**Bank əmanəti (depozit)** – müvafiq müqavilə şərtləri ilə faizlər və ya komisyon haqqlar ödənilməklə və ya ödənilmədən müştərilərin (əmanətçilərin) tələbi ilə qaytarılmasını və ya başqa hesaba köçürülməsini nəzərdə tutan Bankın balansında aparılan cari, əmanət (depozit) və ya digər hesaba qoyulmuş və ya köçürülmüş pul vəsaitidir;
**Bank xidməti** – bu müqavilə ilə təqdim edilən aşağıdakı xidmətlər:

- Bank hesabları üzrə xidmətlər;
- İnternet və mobil bankçılıq xidmətləri (elektron bankçılıq);
- Ödəniş kartı üzrə xidmətlər.

**Texniki overdraft** – kart hesabında olan pul vəsaiti kartdan istifadə etməklə aparılan əməliyyatlar üçün kifayət etmədikdə, həmin əməliyyatların icrası üçün tələb olunan vəsaitin çatışmayan hissəsinin Bank tərəfindən ödənilməsi;
**Ödəniş kartı** – nağdsız ödənişlərin aparılması və nağd pul vəsaitinin əldə edilməsi üçün istifadə edilən ödəniş aləti;
**Əməliyyat günü** – Bankın daxili qaydaları ilə müəyyən edilmiş iş günü ərzində müştərilərə xidmət göstərilən müddətdir;
**Pul köçürmələri** – ödəyici və/və ya vəsait alanın adına bank hesabı açılmadan nağd pulun vəsait alanın xeyrinə köçürülməsi əməliyyatı;
**Açar kart -** ödəniş kartı olaraq "Unibank" KB ASC-nin ATM-lərində kart sahibinin bankda olan bütün fərdi və bank sirri məlumatlarına daxil olma (giriş) və əməliyyat aparmağa imkan verən alət - açar kartdan istifadə etməklə kart sahibi bankda olan bütün hesablarına sərəncam verir, nağdlaşdırma və köçürmə əməliyyatları edir və digər bütün növ bank əməliyyatlarını həyata keçirə bilir. Açar kartdan istifadəyə görə məsuliyyət müştərinin üzərindədir.
**Elektron bankçılıq** – məsafədən, internet vasitəsilə bağlantıdan istifadə etməklə mobil cihazlar və ya "sayt" üzərindən, onlayn (7/24 iş rejimi) rejimində bank xidmətlərinin istifadəsi;
**Tariflər** – xidmətin göstərilməsi üçün müəyyən edilmiş haqq. Tariflər "sayt"da, mobil əlavədə yerləşdirilmişdir və bu Standart Şərtlərin tərkib hissəsi hesab edilir. Bank, "sayt"da məlumat yerləşdirməklə birtərəfli qaydada mövcud tariflərdə dəyişiklik edə bilər. Tariflərlə bağlı dəyişikliklər "sayt"da yerləşdirildiyi gündən 5 (beş) təqvim günü sonra qüvvəyə minir;
**Bərkidilmiş hesab** – müştərinin seçimi ilə hər əməliyyat üçün istifadə edəcəyi və ödəniş kartının bağlı olduğu bank hesabı. Bu hesab iki formatda seçilmək imkanına malikdir: daimi və müvəqqəti. Hər ikisi eyni anda seçilə bilər və bu zaman hesabla əməliyyatlar zamanı müvəqqəti hesab əsas götürülür. Müvəqqəti hesabın seçilmə dövrü mobil tətbiqdə müəyyənləşdirilir.

## 1. ÜMUMİ MÜDDƏALAR

Bu Standart Şərtlər (*gələcəkdə həm müqavilə kimi təsvir oluna bilər*) üzrə Müştəriyə fərqli valyutalarda bir neçə hesablar açıla bilər (VISA karta bağlı AZN, USD, EUR, GBP valyutasında, Mastercard-a bağlı AZN, USD, EUR valyutasında), bir və ya bir neçə ödəniş kartı (*sonradan "kart"*) təqdim edilə bilər. Bankın texniki imkanları nəzərə alınmaqla, gələcəkdə Müştəri tərəfindən internet bankçılıq və ya mobil əlavə vasitəsilə müxtəlif bank hesabları açıla bilər. Müştəri tərəfindən hər bir karta bağlı olan bank hesabları fərqli müəyyən edilə bilər.
Bu Standart Şərtlər üzrə Müştəri Banka məxsus mobil əlavə üzərindən və ya istənilən filiala yaxınlaşmaqla karta bağlı bir daimi bərkidilmiş hesab seçir. Bank tərəfindən xidmət aktivləşdirildikdən sonra Müştəriyə mobil əlavə vasitəsilə və ya mümkün olan digər elektron üsullarla (bundan sonra "elektron üsul") məlumat verildikdən sonra Müştəri Banka məxsus mobil əlavə və ya istənilən filiala yaxınlaşmaqla əlavə olaraq bir müvəqqəti bərkidilmiş hesab seçə bilər. Daha sonra Müştəri, fərqli valyutadan istifadə etmək istədikdə mobil əlavə üzərindən hesabı manual (*əlavədə "valyutanı dəyiş" funksiyasını seçməklə*) olaraq dəyişərək əməliyyatlar edə bilər. Yalnız mobil tətbiqdə nəzərdə tutulan əməliyyatlardan Bank tərəfindən texniki imkanlar yaradıldıqda digər elektron üsulla istifadə edilə bilər. Müştəri kartdan debet, kredit/kredit xətti, əmək haqqı kartı kimi istifadə etmək hüququ əldə edir. Həmçinin, kart müştəriyə nağd qaydada rəsmiləşdirilən kredit vəsaitinin əldə edilməsi üçün bir alət kimi (yəni POS/ATM terminaldan nağdlaşdırmaqla) istifadə hüququ verir. Bu Standart Şərtlərlə Müştəriyə təqdim edilən kart əmanət üçün hesablanan faiz gəlirlərinin əldə edilməsi üçün istifadə edilə bilər.
Bu Standart Şərtlər üzrə Müştəri ilə Bank arasında bütün münasibətlər yazılı qayda ilə yanaşı, internet, elektron poçt ünvanı, SMS və/və ya mobil əlavə vasitəsilə də tənzimlənə bilər. Tərəflər razılaşırlar ki, internet, elektron poçt ünvanı, SMS və/və ya mobil əlavə vasitəsilə və bu müqavilədə nəzərdə tutulmuş istənilən digər qaydada təqdim edilən və təsdiq edilənlər onların həqiqi imzasının analoqudur.
Bu Standart Şərtlər 25 (iyirmi beş) il müddətinə Bank və Müştəri arasındakı münasibətləri əhatə edir. Bu müddət ərzində Bank, elektron üsulla və Standart Şərtlərin müddəalarına uyğun dəfələrlə bu Standart Şərtlərlə müəyyən olunmuş bank xidmətlərini təqdim edə bilər.
Müştəri, bu Standart Şərtlərin qüvvədə olduğu müddət ərzində istənilən vaxt Azərbaycan Kredit Bürosundan

və Asan-Finans dövlət portalından Müştəri haqqında olan bütün məlumatların Bank tərəfindən sorğu edilməsinə və məlumatların ötürülməsinə, həmçinin beynəlxalq kart təşkilatlarının (VISA, Mastercard və s.) təqdim etdiyi xidmətlərə qoşulmaq və həmin xidmətlərdən istifadə etmək məqsədilə ona aid zəruri məlumatların ötürülməsinə əvvəlcədən öz razılığını bildirir və bu razılığını birtərəfli qaydada geri götürə bilməz.

Müştəri, bu Standart Şərtlər üzrə ona təqdim edilmiş ödəniş kartından debet kartı kimi istifadə edə bilər. Ödəniş kartının cari hesabındakı şəxsi vəsaitlərin gündəlik qalığına tariflərə uyğun faiz dərəcəsi ilə faiz hesablanır və hər təqvim ayının sonuncu iş günü Müştərinin istifadəsindəki kartın cari hesabına köçürülür.

Bank, bu Standart Şərtlərə və Müştəri ilə ayrıca bağlanan və bu Standart Şərtlərin müddəaları şərtləri tətbiq edilən müqavilələrə birtərəfli qaydada dəyişiklik edə bilər və bu Standart Şərtləri və həmin müqavilələri Müştəriyə münasibətdə birtərəfli qaydada ləğv edə bilər. Dəyişikliklər və əlavələr "sayt"da yerləşdirildikdən 3 (üç) gün sonra Müştəri tərəfindən qəbul edilmiş və dəyişikliklərə və əlavələrə razılıq verilmiş hesab olunur. Müştərinin dəyişikliklər və/və ya əlavələrə hər hansı narazılığı olarsa, bu Standart Şərtlər üzrə xidmətlərdən istifadəni dayandıra bilər.

Bu Standart Şərtlər üzrə gələcəkdə Müştərinin Bankda qeydiyyatda olan mobil nömrəsinə SMS vasitəsilə və ya Müştərinin Banka bildirdiyi elektron poçt ünvanına, həmçinin mobil bankçılıq vasitəsilə və ya mümkün olan digər formada Bank tərəfindən istənilən məzmunda yeniliklər, dəyişikliklər, yeni məhsullar barədə məlumatlar, öhdəliklərin icrası, o cümlədən bank qarşısında icra edilməmiş öhdəlikləri barədə bildiriş, reklam xarakterli məlumatlar göndərilə bilər.

# I. BÖLMƏ
# BANK HESABLARI

## 2. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

***2.1. Bank aşağıdakı vəzifələri daşıyır:***

2.1.1. Azərbaycan Respublikası maliyyə bazarlarına nəzarət orqanlarının normativ xarakterli aktlarına və Bankın qaydalarına uyğun olaraq təqdim edilən sənədlər əsasında müvafiq valyutalarda hesab açmaq;

2.1.2. Müştəriyə hesablaşma-kassa xidmətləri göstərmək:

- Müştərinin hesablarına daxil olan pul vəsaitini növbəti iş günündən gec olmayaraq (qeyri-sağlam xarakterli əməliyyatlardan, o cümlədən çirkli pulların yuyulmasında və terrorizmin maliyyələşdirilməsində istifadə cəhdlərindən qorunmaq məqsədilə qanunvericiliyə müvafiq olaraq əlavə sənədlərin təqdim olunmasının tələb olunduğu hallar istisna olmaqla) hesablara mədaxil etmək və müştərinin müraciətinə əsasən bu barədə Müştəriyə məlumat vermək;
- Müştərinin təqdim etdiyi ödəniş sənədlərini Banka daxil olduğu günün ertəsi iş günündən gec olmayaraq icra etmək;
- Müştəriyə kassa xidmətləri göstərmək (rəqəmsal bankçılıq qaydasında fəaliyyət göstərən Bankın kassa xidmətləri göstərməyən filialları istisna olmaqla);
- Müştərinin hesabından çıxarışları ona təqdim etmək;
- Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq müştərinin hesab üzrə verdiyi digər sərəncamlarını yerinə yetirmək;

2.1.3. Müştərinin hesabı ilə bağlı istənilən sorğu və məktubları qanunvericiliklə müəyyən olunmuş müddət ərzində cavablandırmaq;

2.1.4. Müştərinin hesabına daxil olan pul vəsaitlərini zərurət yarandıqda Bankın daxili mübadilə məzənnəsinə uyğun qaydada konvertasiya etmək və bununla bağlı komisyon haqlarını Müştərinin hesablarından akseptsiz qaydada silmək.

***2.2. Bankın aşağıdakı hüquqları vardır:***

2.2.1. Hesabın açılması üçün zəruri olan sənədlərlə yanaşı, qeyri-sağlam xarakterli əməliyyatlardan, o cümlədən çirkli pulların yuyulmasında və terrorizmin maliyyələşdirilməsində istifadə cəhdlərindən qorunmaq məqsədilə qanunvericiliyə zidd olmayan digər sənədlərin də təqdim edilməsini tələb etmək, hesabdan qeyri-leqal məqsədlər üçün istifadə edilməsi sübut edildikdə bu müqaviləni ləğv etmək və müştərinin hesabını bağlamaq;

2.2.2. Hesab(lar)dan sahibkarlıq fəaliyyəti ilə bağlı istifadə edildikdə hesab(lar)ı birtərəfli qaydada bloklamaq/bağlamaq;

2.2.3. Hesab üzrə 1 (bir) il ərzində əməliyyat aparılmadığı, müştərinin hesabında saxlanılan pul vəsaitinin məbləği 6 (altı) ay ərzində 10 manatdan az olduqda Bank bu Müqaviləni birtərəfli qaydada ləğv edə və müştərinin hesabını bağlaya bilər.
2.2.4. Müştərinin Bank qarşısında borc və digər öhdəlikləri üzrə məbləğləri, Bank tərəfindən tətbiq olunan cərimələri, eləcə də, mövcud tariflər əsasında Müştəriyə göstərilmiş hər bir xidmət üzrə müvafiq komisyon haqqını, kredit prosedurlarına görə Bank tərəfindən təsdiq edilmiş komisyon haqlarını Müştərinin istənilən hesabından, o cümlədən digər valyutalardakı hesablarından Bankın cari kommersiya məzənnə kursu ilə konvertasiya olunaraq, komisyon haqqları tutulmaq şərtilə mübahisəsiz qaydada (Müştərinin sərəncamı olmadan) silmək. Müştəri, Bank və üçüncü şəxslə arasında bağlanan üçtərəfli əqdlərin icrasını təmin etmək məqsədilə Müştərinin hesabından akseptsiz qaydada (Müştərinin sərəncamı olmadan) pul vəsaitlərini silmək və ya digər müvafiq blok besaba köçürərək bloklaşdırmaq;
2.2.5. Birtərəfli qaydada mövcud tariflərdə və əməliyyatların aparılması qaydalarında dəyişiklik etmək və yeni tariflər (komissiyalar) müəyyən etmək hüququna malikdir. Tariflər “sayt”da yerləşdirilir və “Müştəri” bu tariflərlə bağlı dəyişiklikləri qəbul edir;
2.2.6. İnvestisiya xidməti, o cümlədən marja ticarəti xidməti göstərən şirkətlərlə Müştəri arasında bağlanan müqavilələr üzrə (marja ticarəti xidməti göstərən şirkətlərlə müştəri arasında belə müqavilə bağlandığı halda) Müştərinin öhdəliklərinin yerinə yetirilməsi məqsədilə zəruri məbləğdə pul vəsaitlərini hesabdan akseptsiz qaydada silmək və digər hesablara köçürmək;
2.2.7. Aşağıdakı hallardan biri və ya bir neçəsi baş verdikdə Müştərinin bütün bank hesablarından və digər bütün əsaslarla ona çatası vəsaitlərdən cari kommersiya məzənnə kursu ilə konvertasiya olunaraq, komission haqları tutulmaq şərtilə müvafiq vəsaiti akseptsiz qaydada silmək:
a) Üçüncü şəxslər və ya Bank tərəfindən yalnışlıqla mədaxil edilmiş pul vəsaitlərini;
b) Bankın bankomat, POS-terminal və digər sistemlərində, cihazlarında baş verən texniki nasazlıqlar nəticəsində Müştərinin bank hesabında ona məxsus olmayan pul vəsaitlərinin istifadə imkanı mümkün olduğu təqdirdə çıxarıldığı hallarda. Müəyyən texniki səbəblərə görə hesabda mövcud olan pul vəsaitindən daha artıq istifadə oluna bilinməsi texniki overdraftın formalaşması ilə nəticələnə bilər. Texniki overdraft Bankla razılaşdırılmadan kartın balansında olan pul vəsaitindən artıq əməliyyat aparılması nəticəsində Müştərinin Bank qarşısında yaranmış borcudur və Müştəri tərəfindən bu müqavilədə müəyyən olunmuş qaydada ödənilməsi təmin edilməlidir.
2.2.8. Hesab üzrə texniki overdraft yarandığı halda Müştəri, Bank qarşısında yaranmış borcu texniki overdraftın yarandığı gündən ən geci 30 (otuz) iş günü ərzində ödəməlidir. Müəyyən edilmiş vaxtda Müştəri Bank qarşısında yaranmış borcunu ödəmədiyi təqdirdə, yaranmış texniki overdraft üzrə borc məbləği Bank tərəfindən Müştəriyə məxsus olan bank hesablarından, o cümlədən digər valyutalardakı hesablarından cari kommersiya məzənnə kursu ilə konvertasiya olunaraq, komisyon haqqları tutulmaq şərtilə akseptsiz qaydada silinə bilər.
a) Texniki overdraft baş verdiyi hallarda Müştərinin sərəncamı olmadan akseptsiz qaydada silmək üçün onun hesablarında pul olmadıqda və ya kifayət qədər pul olmadıqda yaranmış borc (texniki overdraft) Müştəriyə illik 30% hesablanmaqla 30 (otuz) təqvim günü müddətində Banka qaytarılmalıdır;
b) Yaranmış borc (texniki overdraft) və ona hesablanmış faizlər bu Müqavilənin 2.2.8.-ci bəndinin “a” yarımbəndində nəzərdə tutulmuş müddət ərzində ödənilmədikdə ödənilməmiş borc gecikdirilmiş hesab edilir və həmin borca görə bu Müqavilənin 2.2.8-ci bəndinin “a” yarımbəndində göstərilən illik faiz dərəcəsi ikiqat məbləğdə hesablanır. Faizlərin hesablanması borc tam ödənilənə qədər davam edir;
c) Borcun ödənilməsinin gecikdirildiyi hər təqvim günü üçün Müştəri ödənilməli olan məbləğin 0,5 (sıfır tam onda beş) %-i miqdarında Banka dəbbə pulu ödəyir;
ç) Texniki overdraft baş verdiyi hallarda yaranmış borc məbləği (texniki overdraft) və faizlər ödənilənə qədər Bank kartın fəaliyyətini (hesab üzrə əməliyyatları) dayandıra bilər və bununla əlaqədar Bankın çəkdiyi və ya çəkməli olduğu bütün xərclər Müştəri tərəfindən ödənilir.
2.2.9. Müştərinin bank hesabına və ya kart balansına səhvən və ya əsassız olaraq daxil olmuş və ya köçürülmüş və ya sonradan səhvən və ya əsassız olaraq daxil olduğu və ya köçürüldüyü müəyyən edilmiş pul vəsaitləri Müştəri tərəfindən geri qaytarılmadıqda və ya bu vəsaitlərin Bank tərəfindən akseptsiz silinməsi üçün onun bank hesablarında kifayət qədər pul vəsaiti olmadıqda, Müştərinin Bank qarşısında kredit öhdəliyi yaranır və kredit xətti açıla bilər (kredit xətti olan müştərilərə). Bu halda Müştəri, kreditdən istifadəyə görə Bankın həmin günə olan mövcud faiz dərəcələrinə uyğun olaraq illik faiz ödəməlidir. Aktiv kredit xətti olmayan müştərilərin hesablarında bu hal overdraft kimi tanınır.

***2.3. Müştəri aşağıdakı vəzifələri daşıyır:***

2.3.1. Hesabın açılması üçün zəruri olan sənədləri, eləcə də, qeyri-sağlam xarakterli əməliyyatlardan, o cümlədən çirkli pulların yuyulmasında və terrorizmin maliyyələşdirilməsində istifadə cəhdlərindən qorunmaq məqsədilə Bank tərəfindən qanunvericiliyə zidd olmayan digər sənədlər tələb edildikdə, onları Banka təqdim etmək;
2.3.2. Hesab(lar)dan sahibkarlıq fəaliyyəti ilə bağlı istifadə etməmək;
2.3.3. Qanunvericiliyə və Bankın daxili qaydalarına uyğun olaraq hesab üzrə nağd və nağdsız qaydada əməliyyatlar aparmaq;
2.3.4. Ödəniş sənədlərini Azərbaycan Respublikası maliyyə bazarlarına nəzarət orqanlarının normativ hüquqi xarakterli aktlarına uyğun tərtib edərək Banka təqdim etmək;
2.3.5. Bank tərəfindən hesaba səhvən köçürülmüş məbləğdən istifadə etməmək və Bankı dərhal məlumatlandırmaq. Hesaba səhv daxil edilmiş pul vəsaitlərini ən geci növbəti əməliyyat günündən gec olmayaraq geri qaytarmaq;
2.3.6. Müştəriyə nəzərdə tutulmuş hallarda fiziki şəxslərin özünüqiymətləndirmə formaları təqdim olunanda onları imzalamaq və lazım olunan sənədləri və/və ya məlumatları təqdim etmək;
2.3.7. Banka düzgün və təhrif olunmamış məlumatlar təqdim etmək. Bu Müqavilə üzrə öhdəliklərinin bu Müqavilə ilə tələb olunan qaydada icrasına təsir edə biləcək bütün şərait və hadisələr barədə, o cümlədən adı, soyadı, atasının adı, qeydiyyat və faktiki ünvanlarında, mobil nömrəsində və əvvəllər Banka təqdim edilmiş istənilən məlumatlarda və/və ya sənədlərdə baş verən dəyişikliklər barədə belə dəyişikliklər baş verdiyi tarixdən 3 (üç) iş günü ərzində Banka yazılı məlumat vermək. Müştəri tərəfindən məlumatların vaxtında verilməməsi nəticəsində yarana biləcək hər hansı mübahisəyə görə Bank məsuliyyət daşımır və Müştərinin ünvanına, mobil telefon nömrəsinə və bu Standart Şərtlər və Müştəri ilə bağlanan müqavilələrdə razılaşdırılmış digər əlaqə vasitələrinə göndərilmiş məlumatlar bütün hallarda Müştəriyə göndərilmiş və ona rəsmi qaydada çatdırılmış hesab olunur.
2.3.8. Müştəri investisiya xidməti, o cümlədən marja ticarəti xidməti göstərən şirkətlərlə onun arasında bağlanan müqavilələr üzrə (marja ticarəti xidməti göstərən şirkətlərlə müştəri arasında belə müqavilə bağlandığı halda) öhdəliklərinin yerinə yetirilməsi məqsədilə hesaba daxil olacaq zəruri pul vəsaitlərinin investisiya şirkətlərinin "Unibank" KB-da ABŞ dollarında olan cari hesabına köçürülməsi barədə Banka əvvəlcədən tapşırıq verir. Bank isə hesaba daxil olacaq zəruri pul vəsaitlərini daxil olduğu günün növbəti əməliyyat günündən gec olmayaraq akseptsiz qaydada silərək investisiya şirkətlərinin ABŞ dollarında olan cari hesabına mədaxil etməyi öz öhdəsinə götürür.
2.3.9. Tariflər "sayt"da yerləşdirilir və "Müştəri" "sayt"a mütəmadi şəkildə daxil olaraq onlarla tanış olmağı öhdəsinə götürür.

***2.4. Müştərinin aşağıdakı hüquqları vardır:***
2.4.1. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hesabdan istifadə etmək.
2.4.2. Lazımi dövr üçün Bankın Tariflərinə uyğun haqq ödəməklə hesabdan əlavə çıxarış, eləcə də, hesabdan vəsaitin silinməsinin düzgünlüyünü təsdiq edən sənədləri "Bank"dan təqdim etməyi tələb etmək.

## 3. HESABIN FƏALİYYƏT REJİMİ

3.1. Müştəri öz hesabının müstəqil sərəncamçısıdır və bu hüququ Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslarla və hallarda məhdudlaşdırıla bilər.
3.2. Müştərinin xarici valyutada olan hesabı üzrə əməliyyatların aparılması zamanı Azərbaycan Respublikasında mövcud valyuta rejiminə riayət olunmalıdır.
3.3. Müştərinin hesabından silinmələrə əsas, qanunvericilikdə və bu Standart Şərtlərdə nəzərdə tutulmuş hallar istisna olmaqla, onun təqdim etdiyi ödəniş sənədləridir.
3.4. Ödəniş sənədləri yazıldığı gündən (yazılma günü nəzərə alınmadan) sonra 3 (üç) iş günü ərzində Banka təqdim edilə bilər. Bu müddət bitdikdən sonra təqdim olunan ödəniş sənədləri icraya qəbul edilmir. Ödəniş sənədi poçt rabitəsi vasitəsi ilə Banka göndərildikdə müddət ödəniş sənədinin poçta verilmə tarixini göstərən poçtun ştampına əsasən müəyyən olunur.
3.5. Bankla Müştəri arasında hesabın kreditləşdirilməsi haqqında əlavə razılaşma yoxdursa, Bank Müştərinin hesabı üzrə əməliyyatları, hesabdakı qalıq çərçivəsində müəyyən olunmuş ardıcıllıq qaydasında aparır. Ödəniş sənədinin məbləği Müştərinin hesabındakı vəsait qalığından çoxdursa, Bank həmin ödəniş sənədini qanunvericiliklə müəyyən olunmuş ardıcıllıqla icra edir.
3.6. Müştəri üçün əməliyyat günü Bankın daxili iş rejimi qaydalarına uyğun olaraq müəyyən edilir.
3.7. Bankın daxili iş rejimi qaydalarına uyğun olaraq müəyyən edilmiş vaxtdan sonra daxil olmuş ödəniş

sənədləri növbəti iş günündə icra edilir.
3.8. Hesabdan çıxarışlar və digər sənədlər Müştərinin özünə və yalnız müvafiq etibarnamə əsasında onun nümayəndəsinə verilir.
3.9. Qanunvericilik və Azərbaycan Respublikası maliyyə bazarlarına nəzarət orqanlarının normativ xarakterli aktları ilə müəyyən edilmiş tələblərin pozulması ilə tərtib edilmiş, habelə qüsurlu ödəniş sənədləri qəbul edilmir.
3.10. Ödəniş sənədinin Banka icra üçün təqdim edilmə vaxtı keçdikdə, ödəniş sənədinin rekvizitlərində uyğunsuzluq olduqda, ödənişin təyinatı və əsası göstərilmədikdə, rəqəmlə və yazı ilə göstərilən məbləğlər arasında uyğunsuzluq olduqda, üzərində düzəliş və ya pozulmalar edildikdə, nüsxələr eyni olmadıqda, ödəniş sənədində və imza nümunələri vərəqəsində qeyd olunmuş imzalar arasında uyğunsuzluq olduqda, möhür olmadıqda və ya uyğun gəlmədikdə (imza və möhür nümunələri vərəqəsində nəzərdə tutulduğu halda) ödəniş sənədi qüsurlu sayılır və Bank tərəfindən icra üçün qəbul olunmur.
3.11. Tərəflər arasında əlavə saziş (razılaşma) olmadığı halda, hesabdakı qalıqlara Bank tərəfindən faiz ödənilmir.
3.12. Bu hesabdan Müştərinin sahibkarlıq fəaliyyəti ilə əlaqədar istifadə edilə bilməz. Sahibkarlıq fəaliyyəti ilə əlaqədar Müştərinin xeyrinə Banka pul vəsaiti daxil olduğu halda Müştərinin razılığı alınmadan həmin vəsait göndərən şəxsə ödənişin məbləğindən bank xidmət haqqı və Bankın çəkdiyi digər xərclər çıxılmaqla geri qaytarılır və ya Müştərinin Bankda sahibkarlıq fəaliyyəti ilə əlaqədar hesabı olarsa, məbləğ həmin hesaba köçürülür. Bankın, həmçinin bank xidmət haqqlarını və pul vəsaitinin göndərənə geri qaytarılması ilə bağlı çəkdiyi digər xərcləri Müştərinin bank hesablarından akseptsiz qaydada silmək hüququ vardır.
3.13. Bankın, Müştəri tərəfindən kartla edilən və Müştəridən asılı olan səbəblərdən baş tutmayan əməliyyatlarla bağlı çəkdiyi xərclərə görə Müştəridən komissiya tutmaq hüququ vardır. Komissiyanın məbləği barədə məlumatlar "sayt"da yerləşdirilir və Müştəri "sayt"a mütəmadi daxil olaraq onlarla tanış olur.
3.14. İmza və möhür nümunələri vərəqəsində birinci və (və ya) ikinci imzaya malik iki və ya daha çox şəxsin imzası qeyd olunduğu hallarda, həmin imzaların istifadəsi qaydası bu Standart Şərtlər və (və ya) müştərinin ərizəsi ilə müəyyən edilir.
3.15. Müqavilə ləğv edilərkən Bank, hesabdakı pul vəsaitinin qalığını Müştəriyə verir və ya Müştərinin göstərişi ilə onun müvafiq yazılı ərizəsinin alındığı gündən ən geci 7 (yeddi) təqvim günü keçənədək başqa hesaba köçürür. Hesabdakı pul vəsaitinin qalığı Müştəri tərəfindən geri alınmadıqda və ya vəsaitin köçürülməli olduğu yeni hesab Banka bildirilmədikdə, həmin vəsait müvafiq müştəri kateqoriyasının bağlanmış hesablarının uçotu aparılan hesaba köçürülür.

## 4. ƏMANƏTLƏRİN SIĞORTALANMASI FONDU, BANK VƏ ƏMANƏTÇİ

4.1. Bank 30 iyul 2007-ci il tarixindən Əmanətlərin Sığortalanması Fondunun (bundan sonra – "Fond") iştirakçısı olaraq (21 saylı Şəhadətnamə) Fonda sığorta haqqı ödəyir (bu haqq Əmanətçidən tutulmur).
4.2. Bank tərəfindən Əmanətçidən bütün müvafiq valyutalarda qəbul edilmiş əmanətlər Fond tərəfindən sığortalanır.
4.3. Sığorta hadisəsi - Bankın məcburi ləğvi və ya müflis elan olunması, Bankın Əmanətçi qarşısında əmanət üzrə öhdəliklərinin yerinə yetirilməsinə məhkəmə tərəfindən moratorium tətbiq edilməsi barədə məhkəmə qərarının qüvvəyə minməsi və Bankın Əmanətçi qarşısında öz öhdəliklərini yerinə yetirə bilməməsi faktının Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən təsdiq edilməsidir.
4.4. Sığorta hadisəsi baş verdikdə, Fond aşağıdakı kütləvi informasiya vasitəsilərində Əmanətçiyə kompensasiya ödənilməsi yeri və vaxtı haqqında elan verir: a) AzTV; b) İctimai TV; c) Azərbaycan qəzeti; d) Respublika qəzeti; e) Xalq qəzeti; f) AzərTAc informasiya agentliyi; g) APA informasiya agentliyi.
4.5. Fonddan kompensasiya almaq üçün Əmanətçi kütləvi informasiya vasitələrində göstərilən yerə yazılı ərizə ilə müraciət edir. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:
a) Şəxsiyyət vəsiqəsi və ya şəxsiyyəti təsdiqləyən digər sənəd;
b) Əmanət kitabçası və ya əmanəti təsdiqləyən digər sənəd;
c) Bank əmanəti müqaviləsi;
d) Kompensasiya almaq üçün əmanətçinin nümayəndəsi müraciət etdikdə o, əlavə olaraq notariat qaydasında təsdiq olunmuş etibarnaməni Fonda təqdim etməlidir.
Ərizənin verildiyi tarixdən etibarən 90 (doxsan) gün müddətində Fond tərəfindən Əmanətçiyə kompensasiya ödənilməlidir. Fond əmanətçilərin ərizələrini kompensasiya ödənişi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq bir il ərzində qəbul edir. Əmanətçinin kompensasiya almaq hüququ Fondun kompensasiyaların ödənilməsi haqqında elanı ilk dəfə dərc etdiyi gündən 5 (beş) il müddətində saxlanılır.

4.6. Aşağıdakı əmanətlər qorunan əmanətlərə aid edilmir:
a) Bankın Azərbaycan Respublikasının ərazisindən kənarda açılmış bölmələri tərəfindən cəlb olunmuş əmanətlər;
b) cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı şübhəli əməliyyatlar nəticəsində qanunvericiliyə müvafiq qaydada müəyyən edilmiş əmanətlər;
c) cinayətin törədilməsi nəticəsində yaranması məhkəmə qərarı ilə təsdiq edilmiş əmanətlər;
d) üzərinə həbs qoyulmuş əmanətlər;
e) cəlb edildiyi günə "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikası Qanununun 8.1.20-ci bəndinə uyğun olaraq müəyyən edilən həddən yuxarı illik faiz dərəcəsi ilə qəbul edilmiş əmanətlər (qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi Mərkəzi Bankla razılaşdırılmaqla Fondun Himayəçilik Şurası tərəfindən müəyyən edilir);
f) fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı 20 (iyirmi) min manatdan yuxarı pul vəsaitləri;
g) fiziki şəxslərin bankın vəkalətli idarəetməsində olan pul vəsaitləri.
4.7. Fond sığorta hadisəsi baş verdikdə Əmanətçiyə əmanətin məbləğinin qanunvericiliklə nəzərdə tutulmuş həcmində kompensasiya ödəyir.
4.8. Fond kompensasiyanı milli valyutada olan əmanət üzrə manatla, ABŞ dollarında olan əmanət üzrə ABŞ dollarında, AVRO-da olan əmanət üzrə isə AVRO-da Əmanətçiyə ödəyir. Əmanət ABŞ dolları və ya AVRO-da olmadıqda kompensasiya bu valyutaların biri ilə sığorta hadisəsinin baş verdiyi günə Azərbaycan Respublikası Mərkəzi Bankının müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çarpaz məzənnə üzrə hesablanır və ödənilir. Fond əmanət üzrə faizləri sığorta hadisəsinin baş verdiyi günə qədər hesablanmış məbləğdə Əmanətçiyə ödəyir.
4.9. Əmanətçinin Bankda bir neçə əmanəti, yaxud həmin əmanətlər müxtəlif valyutalarda olduğu zaman Fond, həmin əmanətləri toplayır və bir əmanət kimi kompensasiya olunur. Əmanətçinin Fondun hər hansı digər iştirakçı bankında olan əmanətinə isə ayrıca əmanət kimi baxılır və kompensasiya ödənilir.
4.10. Fond kompensasiyanın ödənilməsi üçün səhv və ya yanlış məlumatlar təqdim etmiş, yaxud qanunsuz olaraq kompensasiya alınması üçün müraciət etmiş şəxslərə kompensasiya ödəməkdən imtina edir və ya ödənilmiş məbləğin geri qaytarılmasını tələb edir.
4.11. Bank Əmanətçinin yazılı və ya şifahi sorğularına cavab olaraq, Bankın sığorta sistemində iştirakı, qorunan əmanətlər və kompensasiyalar barədə Əmanətçiyə məlumat verir.
4.12. Əmanətçi aşağıda göstərilən ünvanda və ya əlaqə telefonları və elektron poçt vasitəsilə Fondla əlaqə saxlaya bilər: AZ1014, Bakı şəhəri, Bül-Bül prospekti 40; əlaqə tel: (99412) 596 65 91, 596 65 92, 696 65 93; Faks: (99412) 596 65 94; Qaynar xətt 941, email: adif@adif.az, sayt: www.adif.az
4.13. Faizləri "Əmanətlərin sığortalanması haqqında" AR Qanununun 8.1.20-ci maddəsinə müvafiq olaraq Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası tərəfindən əmanətlər üzrə müəyyən edilmiş illik faiz dərəcəsi həddində olan bütün qorunan əmanətlər məbləğindən asılı olmayaraq Fondun iştirakçı bankları tərəfindən "Əmanətlərin tam sığortalanması haqqında" AR Qanununa əsasən tam sığortalanır.

## II. BÖLMƏ
## ÖDƏNİŞ KARTLARI

## 5. ÜMUMİ MÜDDƏALAR

5.1. Bank Müştərinin ödəniş kartına (bundan sonra "Kart" adlanacaq) xidmət göstərilməsini və karta bağlı olan cari hesab vasitəsilə hesablaşma-kassa əməliyyatlarının aparılması üçün bank xidmətlərinin göstərilməsini, Müştəri isə Bankın müəyyən etdiyi Tarif üzrə ona göstərilən bank xidmətlərinə görə müvafiq haqq ödəməyi öhdəsinə götürür.
5.1.1. Bu müqavilə üzrə əldə olunmuş ödəniş kartı açar kart kimi istifadə olunur. Müştərinin seçiminə əsasən açar funksiyası ləğv oluna bilər.
5.2. Bu Standart Şərtlərdə göstərilən və Bank tərəfindən bildirilən digər bütün şərtlər "sayt"da əks olunur.
5.3. Müştəriyə təqdim olunan kartın növündən asılı olaraq, kartın cari hesabındakı gündəlik qalığına "sayt"da qeyd olunan illik faiz dərəcəsi ilə əlavə ödəniş hesablana bilər. Əlavə ödəniş hesablanarsa, ödəniş, hər təqvim ayının sonuncu iş günü Müştərinin Bankda olan cari bank hesabına köçürülür. Müştərinin kartında olan şəxsi vəsaitinə hesablanacaq faiz dərəcəsi haqqında məlumat "sayt"da əks olunur.
5.4. Kartdan nağdlaşdırmaya görə komissiya Bankın tariflərinə uyğun olaraq tənzimlənir.

5.5. Kartdan istifadə etməklə hesab üzrə əməliyyatların aparılması qaydası Azərbaycan Respublikasının qanunvericiliyi, Azərbaycan Respublikası maliyyə bazarlarına nəzarət orqanlarının normativ xarakterli aktları, həmçinin Bankın daxili qaydaları ilə müəyyən edilir.
5.6. Bank, Azərbaycan Respublikası maliyyə bazarlarına nəzarət orqanlarının normativ xarakterli aktlarına və Bankın daxili qaydalarına uyğun olaraq təqdim edilən sənədlər əsasında hesab açır və həmin hesabdan istifadə etmək üçün Müştəriyə kart verir.
5.7. Bankın müəyyən etdiyi bütün tariflər "sayt"da yerləşdirilir və Müştəri "sayt"a mütəmadi daxil olaraq onlarla tanış olur. "Müştəri" tərəfindən aparılan bütün əməliyyatlara görə komisyon haqqı Bank tərəfindən akseptsiz qaydada onun hesabından silinir.
5.8. Müştəriyə kart verilərkən müvafiq eyniləşdirmə (sistemdə kartın Müştəriyə aid olması) edildikdən sonra kartın ilk PİN-kodu Bank tərəfindən Müştəriyə SMS vasitəsilə Müştərinin Bankda qeydiyyatda olan mobil nömrəsinə göndərilir və ya PİN-kod Müştəri tərəfindən Bankda olan POS-terminal, ATM və ya mobil əlavə vasitəsilə şəxsən təyin oluna bilər. PİN-kod Müştərinin imzasının analoqu hesab olunur. Müştəri tərəfindən kartın və ya onun PİN-kodunun üçüncü şəxslərə verilməsi qadağandır, kart və PİN-kodla əlaqədar təhlükəsizlik tədbirlərinə əməl olunmalıdır. Kart üzrə aparılmış əməliyyatlar Müştəri tərəfindən aparılmış əməliyyatlar kimi qəbul olunur.
5.9. Kartdan istifadə olunmaqla aparılmış bütün əməliyyatlara Müştəri məsuliyyət daşıyır.
5.10. Bank, Müştəriyə əsas kartla yanaşı, onun yazılı ərizəsi əsasında (ərizənin imzanın digər analoqundan istifadə etməklə təqdim edilməsi daxil olmaqla) Bankın tariflərinə uyğun ödəniş edilməklə əlavə kart verə bilər. Əlavə kartlarla və ya kartlar üzərindəki məlumatları daxil etməklə aparılan bütün əməliyyatlar üzrə tam məsuliyyəti Müştəri daşıyır.
5.11. Müəyyən texniki səbəblərə görə hesabda (kartda) mövcud olan pul vəsaitindən daha artıq istifadə oluna bilinməsi texniki overdraftın formalaşması ilə nəticələnə bilər. Hesab üzrə texniki overdraft yarandığı halda Müştəri, Bank qarşısında yaranmış borcunu bu Müqavilənin 2.2.8-ci bəndinə uyğun olaraq ödəməlidir. 5.12. Bank kartın verilməsinə görə uyğun gördüyü hər cür təminatı Müştəridən tələb etmək hüququna malikdir. Müştəri, Bankın müəyyən etdiyi şərt və formalarda təminat verməyə borcludur. Bank mümkün ola bilən ziyanın qarşısını almaq üçün müəyyən etdiyi miqdarda sığorta depozitinin qoyulmasını tələb edə və sığorta depozitinin miqdarını birtərəfli qaydada dəyişdirə bilər. Müştərinin Banka verdiyi sığorta depoziti kartdan istifadə nəticəsində yarana bilən borcların qaytarılması üçün nəzərdə tutulur.
5.13. Bu hesabdan Müştərinin sahibkarlıq fəaliyyəti ilə əlaqədar istifadə edilə bilməz. Sahibkarlıq fəaliyyəti ilə əlaqədar Müştərinin xeyrinə Banka pul vəsaiti daxil olduğu halda Müştərinin razılığı alınmadan həmin vəsait göndərən şəxsə ödənişin məbləğindən və ya digər bank hesablarından xidmət haqqı və Bankın çəkdiyi digər xərclər çıxılmaqla geri qaytarılır və ya Müştərinin Bankda sahibkarlıq fəaliyyəti ilə əlaqədar hesabı olarsa, məbləğ həmin hesaba köçürülür.
5.14. Kartla əməliyyatların aparılması ilə əlaqədar Müştəridən daxil olan şikayətlərə baxılarkən Bank əməkdaşları tərəfindən Bankda saxlanılan sənədlərdən sübut kimi istifadə istifadə edilə bilər.
5.15. Kartın itirilməsi, oğurlanması və istifadəçinin iradəsinə zidd olaraq digər vasitələrlə sahibliyindən çıxması, onun sərəncamı olmadan digər vasitələrlə başqa şəxslər tərəfindən istifadə edilməsi hallarında kartın bloklaşdırılması məqsədilə Müştəri tərəfindən Bankın Məlumat Mərkəzinə (tel: + 99412 117) müraciət olunmalıdır. Kartın bloklaşdırılmasının digər üsul və vasitələri (SMS-banking, Mobil tətbiq və s.) haqqında müvafiq izahedici məlumatı "sayt"dan əldə etmək mümkündür. Müştəri tərəfindən məlumatların vaxtında verilməməsinə görə, eləcə də yuxarıda göstərilən hallarda kartdan istifadə etməklə aparılan əməliyyatlara görə Bank məsuliyyət daşımır.
5.16. Kartdan istifadə etməklə əməliyyatların aparılmasında yaranmış hər hansı problem Bankın sərəncamında olmayan (digər şəxslərin idarə etdiyi) məlumat-informasiya sistemlərinin fəaliyyəti ilə əlaqədardırsa, Bank bu problemlərə görə Müştəri qarşısında məsuliyyət daşımır. Mübahisə yarandıqda, kartdan istifadə etməklə əməliyyatların aparılmasında yaranmış problemin Bankın sərəncamında olmayan (digər şəxslərin idarə etdiyi) məlumat-informasiya sistemlərinin fəaliyyəti ilə əlaqədar olmadığı Müştəri tərəfindən sübut edilməyincə, həmin problemə görə Bankın məsuliyyəti istisna olunur.
5.17. Kartdan istifadə etməklə həyata keçirilən əməliyyatlar üzrə hesablaşmalar müvafiq yerli və ya beynəlxalq kart təşkilatlarının qaydalarına və bu Standart Şərtlərin müddəalarına uyğun şəkildə aparılır.
5.18. Müştərinin kart ilə apardığı nağd və ya nağdsız əməliyyatın valyutası kart hesabının valyutasından fərqləndiyi halda məbləğin konvertasiyası:
- Əməliyyat Bankın xidmət etdiyi qurğularda (bankomat, POS-Terminal, online ticarət) baş tutduğu təqdirdə Bankın tariflərində qeyd edilən məzənnə əsasında,

- Əməliyyat Bankın xidmət etmədiyi qurğularda baş tutduğu təqdirdə isə həm Bankın, həm Ekvayerin (mal, iş, xidmət təklif edən şəxsin müvəkkil bankı), həm də Bankla Ekvayer arasında iştirak edən Ödəniş Təşkilatının (maliyyə əməliyyatlarının və hesablaşmaların həyata keçməsini təmin edən sistem) müəyyən etdiyi məzənnə əsasında aparılır.
5.19. Kart vasitəsilə kart hesabının valyutasından fərqli valyutalarda aparılan əməliyyat zamanı məbləğin bloklaşdırıldığı və hesabdan silindiyi (ödəniş tələbinin bank sisteminə daxil olduğu tarix) tarixlərdə valyuta məzənnəsindəki mümkün dəyişikliklər nəticəsində hesabdan faktiki silinən məbləğ bloklaşdırılmış məbləğlə eyni və ya fərqli ola bilər. Valyuta məzənnəsinin dəyişməsi nəticəsində yarana biləcək zərərə görə risk Müştərinin üzərinə düşür.
5.20. Bu Standart Şərtlər Müştərinin ərizəsi əsasında onun adına Bankda, Bankın filial və şöbələrində gələcəkdə açılacaq hər hansı növ bank hesabı üçün, habelə hər hansı kart təqdim edilməsi və ona xidmət göstərilməsi üçün hüquqi əsas ola bilər, bir şərtlə ki, qanunvericilikdə nəzərdə tutulan məcburi tələblərə əməl olunsun və Bank tərəfindən ayrı qayda müəyyən edilməsin.
5.21. Ödəniş sistemləri üzərində nəzarət funksiyasını Azərbaycan Respublikasının Mərkəzi Bankı həyata keçirir (Tel.: 493 11 22, Faks: 493 55 41, e-mail mail@cbar.az)
5.22. Müştəri öz hesabının müstəqil sərəncamçısıdır.
5.23. Müştərinin xarici valyutada olan hesabı üzrə əməliyyatların aparılması zamanı Azərbaycan Respublikasında mövcud valyuta rejiminə riayət olunmalıdır.
5.24. Müştərinin hesabından silinmələrə əsas, qanunvericilikdə və bu Standart Şərtlərdə nəzərdə tutulmuş hallar istisna olmaqla, onun təqdim etdiyi ödəniş sənədləridir.
5.25. Ödəniş sənədləri yazıldığı gündən (yazılma günü nəzərə alınmadan) sonra 3 (üç) iş günü ərzində Banka təqdim edilə bilər. Bu müddət bitdikdən sonra təqdim olunan ödəniş sənədləri icraya qəbul edilmir. Ödəniş sənədi poçt rabitəsi vasitəsi ilə Banka göndərildikdə müddət ödəniş sənədinin poçta verilmə tarixini göstərən poçtun ştampına əsasən müəyyən olunur.
5.26. Bankla Müştəri arasında hesabın kreditləşdirilməsi haqqında əlavə razılaşma yoxdursa, Bank Müştərinin hesabı üzrə əməliyyatları, hesabdakı qalıq çərçivəsində müəyyən olunmuş ardıcıllıq qaydasında aparır. Ödəniş sənədinin məbləği Müştərinin hesabındakı vəsait qalığından çoxdursa, Bank həmin ödəniş sənədini qanunvericiliklə müəyyən olunmuş ardıcıllıqla icra edir.
5.27. Müştəri üçün əməliyyat günü bankın daxili iş rejimi qaydalarına uyğun olaraq müəyyən edilir.
5.28. Bankın daxili iş rejimi qaydalarına uyğun olaraq müəyyən edilmiş vaxtdan sonra daxil olmuş ödəniş sənədləri növbəti iş günündə icra edilir.
5.29. Hesabdan çıxarışlar və digər sənədlər Müştərinin özünə və yalnız müvafiq etibarnamə əsasında onun nümayəndəsinə verilir.
5.30. Bank, internet şəbəkəsində Müştərinin kart ilə apardığı əməliyyatlara dair onun kart hesabından silinmələrə, kartdan PİN kodu daxil edilməsi ilə istifadə olunması nəticəsində vəsait silinməsinə, habelə kartla silinmiş vəsaitin ödənilməsinə görə heç bir məsuliyyət daşımır.
5.31. Məsuliyyətin ötürülməsi qaydasının (liability shift rule) tətbiq edilmədiyi ölkələrdə icra olunan əməliyyatlar zamanı yaranan fırıldaqçılıq hallarına görə Bank kart istifadəçisi qarşısında məsuliyyət daşımır. Bu kateqoriyaya aid ölkələrdə aparılan əməliyyatlar zamanı Bankın rəsmi saytında (unibank.az) yerləşdirilmiş təhlükəsizlik qaydalarına riayət edilməlidir.
5.32. Qanunvericilik və Azərbaycan Respublikası maliyyə bazarlarına nəzarət orqanlarının normativ xarakterli aktları ilə müəyyən edilmiş tələblərin pozulması ilə tərtib edilmiş, habelə qüsurlu ödəniş sənədləri qəbul edilmir.
5.33. Ödəniş sənədinin Banka icra üçün təqdim edilmə vaxtı keçdikdə, ödəniş sənədinin rekvizitlərində uyğunsuzluq olduqda, ödənişin təyinatı və əsası göstərilmədikdə, rəqəmlə və yazı ilə göstərilən məbləğlər arasında uyğunsuzluq olduqda, üzərində düzəliş və ya pozulmalar edildikdə, nüsxələr eyni olmadıqda, ödəniş sənədində və imza nümunələri vərəqəsində qeyd olunmuş imzalar arasında uyğunsuzluq olduqda, möhür olmadıqda və ya uyğun gəlmədikdə (imza və möhür nümunələri vərəqəsində nəzərdə tutulduğu halda) ödəniş sənədi qüsurlu sayılır və Bank tərəfindən icra üçün qəbul olunmur.
5.34. İmza və möhür nümunələri vərəqəsində birinci və (və ya) ikinci imzaya malik iki və ya daha çox şəxsin imzası qeyd olunduğu hallarda, həmin imzaların istifadəsi qaydası bu Standart Şərtlər və (və ya) müştərinin ərizəsi ilə müəyyən edilir.
5.35. “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən Bank tərəfindən hesab üzrə birtərəfli qaydada əməliyyatların icrasının dayandırılması, bank hesablarındakı vəsaitlərin dondurulması,

bank hesablarının bağlanması (ləğv edilməsi), kartla əməliyyatların aparılmasının məhdudlaşdırılması həyata keçirə bilər.

## 6. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

***6.1. Bankın hüquqları:***

6.1.1. Bank xidmətlərinə görə müəyyən edilmiş tariflərə birtərəfli qaydada dəyişiklik etmək və yeni tariflər (komissiyalar) müəyyən etmək;

6.1.2. Müəyyən edilmiş hallarda və qaydada ona ödənilməli olan pul vəsaitlərini (əsas borc, faiz, dəbbə pulu, xidmət haqqı və s.) Müştərinin bütün valyutada olan hesablarından və digər əsaslarla ona çatası vəsaitlərdən akseptsiz qaydada silmək;

6.1.3 Kartdan qeyri-qanuni məqsədlərlə istifadə etməsi, limitləri aşması, hesabında borcun yaranması və ya Müştəri tərəfindən şərtlərə əməl olunmadığı aşkar olunduğu hallarda kartdan istifadə edilməsini və hesab üzrə əməliyyatları dayandırmaq və kartı "imtinalar siyahısı"na yerləşdirmək, karta xidməti ləğv etmək hüququna malikdir.

6.1.4. Bankın tarifləri ilə müəyyən edilmiş hallarda karta nağdsız mədaxil edilmiş vəsaitlərdən xidmət haqqı tutula bilər.

6.1.5. Kartdan nağdlaşdırma zamanı Bankın tariflərinə uyğun komissiya tutula bilər.

6.1.6. Kart Bankın mülkiyyəti hesab edilir. Bank, hesabın təhlükəsizliyi və digər risklər baxımından birtərəfli qaydada Müştərinin kartını bloklaşdırmaq və ya karta xidmət göstərilməsini dayandırmaq, kartın risk qrupunu (kart əməliyyatları üzrə müəyyən edilmiş məhdudiyyətlər qrupu) dəyişmək və kartın üzərində digər sərəncam vermək hüququna malikdir. Müştərinin ərizəsi əsasında Bankın tarifləri nəzərə alınmaqla müştəri tərəfindən müvafiq haqq ödənilərək kart yenisi ilə əvəz oluna bilər. Ödəniş təşkilatları ilə yaranan texniki problemlərlə əlaqədar Bank tərəfindən kart yenisi ilə əvəz edilə bilər.

6.1.7. Hesabın açılması üçün zəruri olan sənədlərlə yanaşı, qeyri-sağlam xarakterli əməliyyatlardan, o cümlədən çirkli pulların yuyulmasında və terrorizmin maliyyələşdirilməsində istifadə cəhdlərindən qorunmaq məqsədilə qanunvericiliyə zidd olmayan digər sənədlərin də təqdim edilməsini tələb etmək, hesabdan qeyri-leqal məqsədlər üçün istifadə edilməsi sübut edildikdə hesabı birtərəfli qaydada bağlamaq;

6.1.8. Hesaba səhv daxil edilmiş pul vəsaitlərini ən geci növbəti əməliyyat günündən gec olmayaraq geri qaytarmaq.

6.1.9. Aşağıdakı hallardan biri və ya bir neçəsi baş verdikdə Bankın, Müştərinin bütün bank hesablarından və digər bütün əsaslarla ona çatası vəsaitlərdən cari kommersiya məzənnə kursu ilə konvertasiya olunaraq, komission haqları tutulmaq şərtilə akseptsiz qaydada silmək hüququna malikdir:

a) Üçüncü şəxslər və ya Bank tərəfindən yalnışlıqla mədaxil edilmiş pul vəsaitlərini;

b) Bankın bankomat, POS-terminal və digər sistemlərində, cihazlarında baş verən texniki nasazlıqlar nəticəsində Müştərinin bank hesabında ona məxsus olmayan pul vəsaitlərinin istifadə imkanı mümkün olduğu təqdirdə çıxarıldığı hallarda. Müəyyən texniki səbəblərə görə hesabda mövcud olan pul vəsaitindən daha artıq istifadə oluna bilinməsi texniki overdraftın formalaşması ilə nəticələnə bilər. Texniki overdraft Bankla razılaşdırılmadan kartın balansında olan pul vəsaitindən artıq əməliyyat aparılması nəticəsində Müştərinin Bank qarşısında yaranmış borcudur və Müştəri tərəfindən bu müqavilədə müəyyən olunmuş qaydada ödənilməsi təmin edilməlidir.

c) Kartla əməliyyatların aparılması zamanı Müştərinin kart hesabında kifayət qədər vəsait olmadığı hallarda həmin əməliyyatın baş tutması üçün Bank tərəfindən Müştəriyə imkan yaradıla bilər və bu hal overdraftı əhatə edir. Bu zaman həmin əməliyyatın aparılması nəticəsində Müştərinin Bank qarşısında yaranmış borcunun bu müqavilədə müəyyən olunmuş qaydada ödənilməsi təmin edilməlidir.

6.1.10. Müştərinin bank hesabına və ya kart balansına səhvən və ya əsassız olaraq daxil olmuş və ya köçürülmüş və ya sonradan səhvən və ya əsassız olaraq daxil olduğu və ya köçürüldüyü müəyyən edilmiş pul vəsaitləri Müştəri tərəfindən geri qaytarılmadıqda və ya bu vəsaitlərin Bank tərəfindən akseptsiz silinməsi üçün onun bank hesablarında kifayət qədər pul vəsaiti olmadıqda, Müştərinin Bank qarşısında kredit öhdəliyi yaranır və kredit xətti açıla bilər (kredit xətti olan müştərilərə). Bu halda Müştəri, kreditdən istifadəyə görə Bankın həmin günə olan mövcud faiz dərəcələrinə uyğun olaraq illik faiz ödəməlidir. Aktiv kredit xətti olmayan müştərilərin hesablarında bu hal overdraft kimi tanınır.

6.1.11. Bankın, Müştəri tərəfindən kartla edilən və Müştəridən asılı olan səbəblərdən baş tutmayan əməliyyatlara görə çəkdiyi xərclərlə bağlı Müştəridən komissiya tutmaq hüququ vardır. Komissiyanın məbləği barədə məlumatlar "sayt"da yerləşdirilir və Müştəri "sayt"a mütəmadi daxil olaraq onlarla tanış olur.

***6.2. Bankın vəzifələri:***

6.2.1.Müştərinin hesabına daxil olan pul vəsaitlərini zərurət yarandıqda Bankın kommersiya məzənnəsinə uyğun qaydada konvertasiya etmək və bununla bağlı komisyon haqqlarını Müştərinin hesablarından akseptsiz qaydada silmək.
6.2.2. Müştəriyə hesablaşma-kassa xidmətləri göstərmək:
- Müştərinin hesablarına daxil olan pul vəsaitini növbəti iş günündən gec olmayaraq (qeyri-sağlam xarakterli əməliyyatlardan, o cümlədən çirkli pulların yuyulmasında və terrorizmin maliyyələşdirilməsində istifadə cəhdlərindən qorunmaq məqsədilə qanunvericiliyə müvafiq olaraq əlavə sənədlərin təqdim olunmasının tələb olunduğu hallar istisna olmaqla) hesablara mədaxil etmək və müştərinin müraciətinə əsasən bu barədə Müştəriyə məlumat vermək;
- Müştərinin təqdim etdiyi ödəniş sənədlərini Banka daxil olduğu günün ertəsi iş günündən gec olmayaraq icra etmək;
- Müştəriyə kassa xidmətləri göstərmək (rəqəmsal bankçılıq qaydasında fəaliyyət göstərən Bankın kassa xidmətləri göstərməyən filialları istisna olmaqla);
- Müştərinin hesabından çıxarışları ona təqdim etmək;
- Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq müştərinin hesab üzrə verdiyi digər sərəncamlarını yerinə yetirmək;
6.2.3. Müştərinin hesabı ilə bağlı istənilən sorğu və məktubları qanunvericiliklə müəyyən olunmuş müddət ərzində cavablandırmaq.
***6.3. Müştərinin hüquqları:***
6.3.1. Kart vasitəsilə mal, iş, xidmətlərə görə əməliyyatlar aparmaq, o cümlədən bankomat (ATM) və POS-terminaldan nağd vəsait əldə etmək;
6.3.2. Lazımi dövr üçün Bankın tariflərinə uyğun haqq ödəməklə hesabdan əlavə çıxarış, eləcə də, hesabdan vəsaitin silinməsinin düzgünlüyünü təsdiq edən sənədləri Bankdan təqdim etməyi tələb etmək;
6.3.3. Bankın, Əmanətlərin Sığortalanması Fondunun iştirakçısı olması, əmanətlərin sığortalanması şərtləri, kompensasiya ödənilməsi şərtləri və qaydaları barədə yazılı və şifahi sorğu ilə Banka müraciət etmək və ondan yazılı məlumat almaq;
6.3.4. Kartdakı risk qruplarının dəyişdirilməsi üçün Banka müraciət etmək. Bu zaman yeni risk qrupu üzrə daha aşağı təhlükəsizlik tədbirləri nəzərdə tutularsa, onun nəticəsində yarana biləcək istənilən risklərə, o cümlədən maddi və qeyri-maddi risklərə görə Müştəri məsuliyyət daşıyır.
6.3.5. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hesabdan istifadə etməklə bağlı digər hüquqlar;
6.3.6. Müştəri plastik kartın PİN-kodunu mobil əlavə üzərindən, Bank filiallarındakı POS-terminal və “Unibank” KB ASC-yə məxsus olan bankomatlar vasitəsi ilə dəyişdirə bilər. PİN-kodunun dəyişdirilməsi müvafiq tariflər əsasında həyata keçirilir.
6.3.7. Kartın risk qrupu və əməliyyatların məhdudiyyətləri barədə “sayt”dan məlumat əldə etmək.
***6.4. Müştərinin vəzifələri:***
6.4.1. Kart vasitəsilə bir qayda olaraq hesabda olan pul vəsaitinin məbləği həddində əməliyyat aparmaq və hesab üzrə texniki overdrafta yol verməmək. Texniki overdraft Bankla razılaşdırılmadan kartın balansında olan pul vəsaitindən artıq əməliyyat aparılması nəticəsində müştərinin Bank qarşısında yaranmış borcudur və Müştəri tərəfindən məcburi qaydada ödənilməlidir.
6.4.2. Kartla əməliyyatların aparıla bilməsi üçün kart hesabını lazımi miqdarda pul vəsaiti ilə təmin etmək;
6.4.3. Hesabına daxil olan pul vəsaitlərini zərurət yarandıqda Bankın kommersiya məzənnəsinə uyğun qaydada Bank tərəfindən konvertasiya edilməsinə və bununla bağlı komisyon haqqlarının onun hesablarından akseptsiz qaydada silinməsinə əvvəlcədən öz razılığını bildirir.
6.4.4. Kartın itməsi, oğurlanması, üzərində təhriflər edilməsi və üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edilməsinin qarşısının alınması üçün bütün mümkün tədbirləri görməlidir. Hesab üzrə əməliyyatların təhlükəsizlik tələblərinin pozulması, məlumatların üçüncü şəxslərə açıqlanması hallarında Müştəri məsuliyyət daşıyır.
6.4.5. Yeni kart verildiyi halda, yeni kartın verilməsi ilə bağlı bütün xərcləri ödəmək;
6.4.6. Hesabda olan pul vəsaitindən hər hansı qeyri-qanuni məqsəd, o cümlədən çirkli pulların yuyulması (qeyri-qanuni yolla əldə edilmiş gəlirlərin leqallaşdırılması) və terrorizmin maliyyələşdirilməsi üçün istifadə etməyəcəyinə təminat vermək və buna görə məsuliyyət daşımaq;
6.4.7. Təqdim edilmiş mobil və digər əlaqə nömrələrinin dəyişildiyi təqdirdə Banka 2 (iki) təqvim günü ərzində məlumat vermək. Məlumat verilmədiyi təqdirdə bütün növ əməliyyatlara (internet üzərindən online, beynəlxalq köçürmələr, POS terminal, ATM və digər) görə məsuliyyət Müştərinin üzərindədir.

6.4.8. Bank tərəfindən istənilən zaman Müştərinin kartını bloklaşdırmaq və ya karta xidmət göstərilməsini dayandırmaq, birdəfəlik, gündəlik, həftəlik və aylıq əməliyyat limitlərini dəyişmək, kartın risk qrupunu dəyişmək və kartın üzərində digər sərəncam vermək səlahiyyətlərinə razılığını bildirir.
6.4.9. Kartla bağlı məlumatları əldə etmək üçün "sayt"la mütəmadi olaraq tanış olmaq;
6.4.10. Hesabın açılması üçün zəruri olan sənədləri, eləcə də, qeyri-sağlam xarakterli əməliyyatlardan, o cümlədən çirkli pulların yuyulmasında və terrorizmin maliyyələşdirilməsində istifadə cəhdlərindən qorunmaq məqsədilə Bank tərəfindən qanunvericiliyə zidd olmayan digər sənədlər tələb edildikdə onları Banka təqdim etmək;
6.4.11. Qanunvericiliyə və Bankın daxili qaydalarına uyğun olaraq hesab üzrə nağd və nağdsız qaydada əməliyyatlar aparmaq;
6.4.12. Ödəniş sənədlərini Azərbaycan Respublikası maliyyə bazarlarına nəzarət orqanlarının normativ hüquqi xarakterli aktlarla uyğun tərtib edərək Banka təqdim etmək;
6.4.13. Bank tərəfindən hesaba səhvən köçürülmüş məbləğdən istifadə etməmək və Bankı dərhal məlumatlandırmaq. Hesaba səhv daxil edilmiş pul vəsaitlərini ən geci növbəti əməliyyat günündən gec olmayaraq geri qaytarmaq;
6.4.14. Bank tərəfindən tələb edildikdə Banka düzgün və təhrif olunmamış məlumatlar təqdim etmək. Müvafiq qaydada icrasına təsir edə biləcək bütün şərait və hadisələr barədə, o cümlədən adı, soyadı, atasının adı, qeydiyyat və faktiki ünvanlarında, mobil nömrəsində və əvvəllər Banka təqdim edilmiş məlumatlarda baş verən dəyişikliklər barədə belə dəyişikliklər baş verdiyi tarixdən 3 (üç) iş günü ərzində Banka yazılı məlumat vermək. Müştəri tərəfindən məlumatların vaxtında verilməməsi nəticəsində yarana biləcək hər hansı mübahisəyə görə Bank məsuliyyət daşımır və Müştərinin ünvanına, mobil telefon nömrəsinə və bu Standart Şərtlərdə və Müştəri ilə bağlanan müqavilələrdə razılaşdırılmış digər əlaqə vasitələrinə göndərilmiş məlumatlar bütün hallarda Müştəriyə göndərilmiş və ona rəsmi qaydada çatdırılmış hesab olunur.

## 7. MÜBAHİSƏLƏRİN HƏLLİ VƏ PRETENZİYALAR

7.1. Tərəflər arasında yaranan mübahisələr Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında həll edilir.
7.2. Müştəri hesab üzrə çıxarışda göstərilən əməliyyatlara, eləcə də əsassız silinmələrə etiraz etdikdə etiraz etdiyi əməliyyatın baş verdiyi tarixdən 89 (səksən doqquz) təqvim günü müddətində Banka yazılı qaydada pretenziya təqdim etməli və etirazını əsaslandırdığı halları pretenziyada göstərməlidir. Bu müddət ərzində pretenziya təqdim edilmədikdə və ya hesab üzrə çıxarışda göstərilən əməliyyatlara etirazın əsaslandırıldığı hallar pretenziyada göstərilmədikdə hesab üzrə çıxarışda göstərilən əməliyyatlar təsdiq olunmuş hesab edilir.
7.3. Göndərilmiş və ya təqdim olunmuş pretenziyalara cavab verilməsi müddəti onun alındığı tarixdən 45 (qırx beş) təqvim günü müəyyən edilir.

## 8. "SMS-BANKİNQ" XİDMƏTİNİN GÖSTƏRİLMƏSİ

8.1. Plastik kart vasitəsilə həyata keçirilən bütün əməliyyatlar və onların nəticəsində yaranan hesab qalığı barədə məlumatların əldə edilməsi üzrə xidmətlər Müştəriyə ödənişli olaraq Kart prosessinq mərkəzi vasitəsilə göstərilir. Bank bu xidmətdən istifadə etməyi Müştəriyə tövsiyyə edir və Müştəri "SMS-Bankinq" xidmətinə Banka müraciət etməklə istənilən vaxt qoşula bilər.
8.2. Bank bəyan edir ki, "SMS-Bankinq" xidmətinə qoşulmaq Müştəriyə onun plastik kartı vasitəsilə aparılan əməliyyatlar barədə məlumat əldə etmək və bununla da aparılmış əməliyyatın Müştərinin iradəsinə uyğun olub-olmadığını vaxtında müəyyənləşdirmək imkanı yaradır. Bank tərəfindən Müştəriyə ona məxsus hesablarla bağlı da bu xidmətdən istifadə hüququ verilə bilər.

# III. BÖLMƏ
# ELEKTRON XİDMƏTLƏR GÖSTƏRİLMƏSİ

## 9. ANLAYIŞLAR

9.1. Mobil bankçılıq vasitəsilə xidmət göstərilməsi haqqında Qaydalar - şərtlərlə yanaşı Mobil bankçılıq vasitəsilə xidmət göstərilməsini tənzimləyən Mobil Bankçılıqda yerləşdirilən qaydalar;
9.2. İstifadəçi - Bankın müştərisi olan və Mobil Bankçılıqda qeydiyyatdan keçmiş fiziki şəxs;

9.3. Bank – "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar cəmiyyəti;
9.4. Mobil Bankçılıq – Paroldan və müəyyən olunmuş hallarda Asan imzadan istifadə etməklə internet vasitəsilə nəzərdə tutulmuş əməliyyatların aparılmasına və sənədlərin təsdiq edilməsinə imkan yaradan proqramdır. Proqrama çıxış istənilən mobil operatorların abonenti olan istifadəçilərə verilir.
9.5. Mobil telefon SİM-kartı – İstifadəçi tərəfindən Banka bildirilmiş Mobil bankçılığa və ya Mobil bankçılığa və Asan imzasına bağlı olan hər hansı mobil operatorun sim kartıdır (nömrəsidir);
9.6. Asan İmza - İstifadəçinin şəxsi imzasının analoqu olan onun mobil telefon SİM-kartına bağlı rəqəmsal imzadır. Asan İmza ilə istifadəçinin şəxsiyyəti təsdiq olunur və sənədlərə rəqəmsal imza qoyulur.
9.7. Parol - Mobil Bankçılıqda qeydiyyatdan keçməsi nəticəsində İstifadəçi tərəfindən yaranmış bu proqrama daxil olub, nəzərdə tutulmuş əməliyyatları və sənədləri təsdiq etmək üçün istifadə olunan, İstifadəçinin eyniləşdirilməsini təmin edən rəqəmlərin ardıcıl toplusudur. Əməliyyatların və sənədlərin təsdiq edilməsi zamanı parol İstifadəçinin imzasının analoqu kimi qəbul olunur. Parol ilə təsdiq olunmuş sənədlər kağız daşıyıcıda olan İstifadəçinin şəxsi imzası ilə təsdiq olunmuş sənədlərlə eyni hüquqi qüvvəyə malikdir;
9.8. Qeydiyyat yazısı – parolun daxil edilməsi nəticəsində açılan Mobil Bankçılıqda İstifadəçinin şəxsi səhifəsi;
9.9. Mobil cihaz – İstifadəçiyə məxsus Mobil bankçılıq yüklənmiş mobil telefon, smartfon, planşet və sair bu kimi elektron cihazdır.
9.10. Cari hesab - istifadəçinin hesabına daxil olan pul vəsaitlərinin qəbul edilməsi və hesaba salınması, habelə hesab üzrə digər əməliyyatların aparılmasına dair sərəncamların yerinə yetirilməsi üçün açılan bank hesabıdır;
9.11. Əmanət hesabı – bank əmanəti müqaviləsinə əsasən istifadəçinin pul vəsaitlərinin əmanətlərə cəlb edilməsi, əmanətlərin uçotu və müvafiq əməliyyatların aparılması üçün açılan bank hesabıdır;
9.12. Ödəniş kartı - nağdsız ödənişlərin aparılması və nağd pul vəsaitinin alınması üçün istifadə edilən kartdır;
9.13. Tariflər – istifadəçiyə göstərilmiş xidmətlər müqabilində Bank tərəfindən birtərəfli qaydada müəyyən edilmiş istifadəçi tərəfindən ödənilməli olan haqqdır. Tariflər "sayt"da yerləşdirilir.
9.14. Şəxsiyyəti təsdiq edən sənəd – Azərbaycan Respublikası Mərkəzi Bankının "Banklarda hesabların açılması, aparılması və bağlanması Qaydaları" ilə müəyyən olunur.

## 10. ELEKTRON XİDMƏTLƏR

Elektron xidmətlər Mobil Bankçılıq vasitəsilə nəzərdə tutulmuş əməliyyatların aparılması və sənədlərin təsdiqlənməsini əhatə edir.

## 11. MOBİL BANKÇILIQDAN QEYDİYYATDAN KEÇMƏ QAYDASI

İstifadəçi şəxsiyyətini təsdiq edən sənədi ilə ilk növbədə Bankın hər hansı filialına yaxınlaşmaqla, filialın əməkdaşı tərəfindən təqdim olunmuş sənədləri imzalayır və Bankın sistemində qeydiyyata alınır. Bundan sonra İstifadəçi Mobil Bankçılıqda "Filial vasitəsilə qeydiyyat keçməsini" seçməklə filialda qeydiyyatdan keçdiyi zaman təqdim edilmiş mobil telefon nömrəsini müvafiq xanaya daxil edir. Mobil telefon nömrəsi filialda qeydiyyatdan keçmiş mobil telefon nömrəsi ilə eyni olduqda İstifadəçinin mobil telefon nömrəsinə bir dəfə üçün istifadəsi nəzərdə tutulmuş şifrə göndərilir. Şifrəni Mobil bankçılığın müvafiq xanasına daxil etdikdən sonra İstifadəçi Mobil Bankçılığa daxil olmaq və əməliyyatları aparmaq üçün parolu özü müəyyən edir.

## 12. MOBİL BANKÇILIQ VASİTƏSİLƏ ƏMƏLİYYATLARIN APARILMASI VƏ SƏNƏDLƏRİN İMZALANMASI

12.1. Bankın texniki imkanları nəzərə alınmaqla mobil bankçılıq vasitəsilə aşağıdakı əməliyyatlar aparıla və sənədlər imzalana bilər:
12.1.1. Cari və əmanət hesablarının açılması, buna dair müvafiq sənədlərin, o cümlədən əmanət müqavilələrinin, bank hesabları üzrə xidmət müqavilələrinin imzalanması və yaxud da bu Standart Şərtlərin qəbul (aksept) edilməsi;
12.1.2. Cari bank hesablarının bağlanması;

12.1.3. İstifadəçinin cari hesablarından pul vəsaitinin cari və əmanət hesablara köçürülməsi (o cümlədən ödəniş kartından bank hesablarına və bank hesablarından ödəniş kartlarına);
12.1.4. Bank qarşısında olan kredit borclarının ödənilməsi və kredit limitinin dəyişdirilməsi üçün müraciət edilməsi;
12.1.5. Bank hesablarından çıxarışlar və istifadəçinin rekvizitlərinin Bankın qüvvədə olan tariflərinə uyğun istifadəçinin hesablarından akseptsiz komisyon haqqının silinməsi şərtilə, müştərinin qeyd etdiyi elektron poçt ünvanına göndərilməsi;
12.1.6. Kartların sifariş edilməsi. Bu zaman Mobil Bankçılıq vasitəsilə yalnız sifariş verilə bilər. Müvafiq sənədlər Bankın baş ofisində və ya filiallarında imzalanır;
12.1.7. Kartların risk qrupunun dəyişdirilməsi (kreditin alınması, istifadə edilməsi və ödənilməsi üçün verilmiş, o cümlədən istifadəçisi eyniləşdirilməmiş kartlar istisna təşkil edir);
12.1.8. Kartların bloka salınması və blokdan çıxarılması. Bu zaman yalnız Mobil Bankçılıq vasitəsi ilə bloka salınmış kartlar blokdan azad oluna bilər;
12.1.9. Pul vəsaitinin girovu ilə təmin edilmiş kredit müqavilələrinin, pul vəsaitinin girov müqavilələrinin (notarial qaydada təsdiqlənməli müqavilələr istisna olmaqla) və buna dair müvafiq sənədlərin imzalanması;
12.1.10. Təminatsız kreditlərin əldə edilməsi üçün sifariş verilməsi.
12.2. Notarial qaydada təsdiqlənən və/və ya mobil bankçılıq vasitəsilə bağlanması nəzərdə tutulmayan müqavilələr istisna olmaqla digər müqavilələr və həmin müqavilələrə aid digər sənədlər Asan imza, elektron imza və ya imzanın digər analoqu ilə təsdiqlənir.

## 13. TƏRƏFLƏRİN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

13.1. İstifadəçi öz üzərinə aşağıdakı öhdəlikləri götürür:
13.1.1. Mobil telefon SİM-kartının və mobil cihazının itməsi, oğurlanması və digər vasitələrlə onun sahibliyindən çıxması, üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edilməsinin qarşısının alınması üçün bütün mümkün tədbirləri görmək;
13.1.2. Mobil telefon Sim-kartının və/və ya mobil cihazının itirilməsi, oğurlanması və digər vasitələrlə onun sahibliyindən çıxması, üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edilməsi barədə məlumatı dərhal Bankın 117 nömrəsinə zəng edərək məlumat vermək;
13.1.3. Bank tərəfindən tələb edildikdə Banka düzgün və təhrif olunmamış məlumatlar təqdim etmək. Müvafiq qaydada icrasına təsir edə biləcək bütün şərait və hadisələr barədə, o cümlədən adı, soyadı, atasının adı, qeydiyyat və faktiki ünvanlarında, mobil nömrəsində və əvvəllər Banka təqdim edilmiş digər məlumatlarda baş verən dəyişikliklər barədə belə dəyişikliklər baş verdiyi tarixdən 3 (üç) iş günü ərzində Banka yazılı məlumat vermək. Müştəri tərəfindən məlumatların vaxtında verilməməsi nəticəsində yarana biləcək hər hansı mübahisəyə görə Bank məsuliyyət daşımır və Müştərinin ünvanına, mobil telefon nömrəsinə və bu Standart Şərtlərdə və Müştəri ilə bağlanan müqavilələrdə razılaşdırılmış digər əlaqə vasitələrinə göndərilmiş məlumatlar bütün hallarda Müştəriyə göndərilmiş və ona rəsmi qaydada çatdırılmış hesab olunur.
13.1.4. Mobil bankçılıq vasitəsilə xidmət göstərilməsi haqqında Qaydalarına və Mobil Bankçılığa Bank tərəfindən birtərəfli qaydada dəyişikliklərin edilməsi hüququnu qəbul edir. Qaydalara edilmiş dəyişikliklər Mobil bankçılıqda yerləşdirildiyi gün İstifadəçi tərəfindən onların qəbul edildiyi gün sayılır.
13.2. İstifadəçinin aşağıdakı hüquqları var:
13.2.1. Mobil Bankçılıq vasitəsilə nəzərdə tutulmuş əməliyyatları aparmaq və sənədləri imzalamaq;
13.2.2. Mobil bankçılıq vasitəsilə aparılmış hər hansı əməliyyatla bağlı sorğu və etirazı Bankın 117 nömrəsinə zəng etməklə vermək. Sorğu və etiraz əməliyyatın həyata keçirildiyi gündən yalnız 14 (on dörd) iş günü ərzində verilə bilər. Bu müddət keçdikdən sonra Banka ünvanlanmış sorğular və etirazlara baxılmır və cavablandırılmır.
13.2.3. İstifadəçi Bankın mövcud və gələcəkdə təklif edəcəyi bütün növ elektron xidmətlərdən istifadə hüququnu əldə edir və elektron xidmətlərdən istifadə qaydaları İstifadəçi ilə Bank arasında ayrıca razılaşdırılacaq. Elektron xidmətlər haqqında ətraflı məlumatları "sayt"dan əldə etmək olar.
13.3. Bank öz üzərinə aşağıdakı öhdəlikləri götürür:
13.3.1. Müştəridən məlumatın daxil olduğu tarixdən etibarən ən geci növbəti iş günü ərzində İstifadəçinin mobil bankçılıqda olan qeydiyyat yazısını bloklaşdırmaq;
13.4. Bankın aşağıdakı hüquqları var:
13.4.1. Bankın qüvvədə olan tariflərinə uyğun istifadəçinin hesablarından akseptsiz komisyon haqqını silmək.

13.4.2. Mobil Bankçılığa və Mobil bankçılıq vasitəsilə xidmət göstərilməsi haqqında Qaydalarına birtərəfli qaydada dəyişiklik etmək.

## 14. SƏNƏDLƏRİN HÜQUQİ QÜVVƏSİ

14.1. Mobil bankçılıq vasitəsilə əməliyyatların aparılması zamanı elektron formada təsdiqlənmiş sənədlər kağız daşıyıcıda olan İstifadəçinin şəxsi imzası ilə təsdiqlənmiş müvafiq sənədlərlə eyni hüquqi qüvvəyə malikdir.
14.2. İstifadəçi qəbul edir ki, Bank tərəfindən birtərəfli qaydada dəyişdirilmiş Mobil bankçılıq vasitəsilə xidmət göstərilməsi haqqında Qaydalar, Mobil bankçılıq vasitəsilə əməliyyatların aparılması zamanı təsdiqlənmiş elektron sənədlər mübahisələrin həlli zamanı sübutdurlar.

## 15. MƏSULİYYƏT

15.1. İstifadəçi Mobil Bankçılıqda qeydiyyat zamanı daxil etdiyi məlumatların tam və düzgün olduğunu, bütün məlumatların onun özünə məxsus olduğunu təsdiq edir. Hər hansı məlumatın səhv daxil edilməsinə və ya ona məxsus olmayan məlumatın daxil edilməsinə və bununla bağlı yarana biləcək bütün risklərə görə məsuliyyət İstifadəçinin üzərinə düşür.
15.2. Mobil telefon SİM-kartının və/və ya mobil cihazının itirilməsi, o cümlədən oğurlanması və digər vasitələrlə İstifadəçinin sahibliyindən çıxması, üçüncü şəxslər tərəfindən qanunsuz istifadə edilməsi nəticəsində ona dəymiş zərərə görə Bank məsuliyyət daşımır.
15.3. Mobil bankçılıq vasitəsilə əməliyyatların aparılması zamanı İstifadəçi tərəfindən rekvizitlərin, məbləğlərin və ya digər məlumatın səhv daxil edilməsinə görə və bunun nəticəsində ona dəymiş zərərə görə Bank məsuliyyət daşımır.
15.4. Mobil bankçılıq vasitəsilə əməliyyatların aparılması və sənədlərin imzalanması zamanı yarana biləcək bütün risklərə görə məsuliyyət İstifadəçinin üzərinə düşür.
15.5. Müştərinin Elektron Bankçılığa (internet və mobil cihazlar üzərindən bank əməliyyatlarının aparılmasının təmini) qoşulmaq imkanı var. Tərəflər razılığa gəlirlər ki, müştəri Elektron Bankçılığa qoşulmaq və ondan istifadə etmək üçün Asan imza, mobil nömrə və Bankın ödəniş kartı ilə elektron formada qeydiyyatdan keçdiyi halda Bankın mobil tətbiqində yerləşdirilmiş elektron bankçılığa dair qaydalar Müştəri tərəfindən onun qeydiyyat zamanı daxil etdiyi mobil telefon nömrəsinə daxil olan identifikasiya kodu vasitəsi ilə təsdiqlənir (qəbul olunur). Bu zaman Müştərinin mobil telefon nömrəsinə daxil olan kod ilə təsdiqlənmiş qaydalar Müştərinin şəxsi imzası ilə edilmiş təsdiq ilə eyni hüquqi qüvvəyə malikdir.
15.6. Bankın texniki imkanları nəzərə alınmaqla gələcəkdə bank məhsulları ilə əlaqədar elektron imza, Asan imza və sair analoq imza vasitələrdən elektron imzalanmaqla yeni razılaşmalar və şərtlər tətbiq edilə bilər.

# IV.BÖLMƏ
# DİGƏR ŞƏRTLƏR

## 16. XARİCİ DÖVLƏTLƏRİN FİZİKİ ŞƏXSLƏRİNİN MALİYYƏ ƏMƏLİYYATLARI BARƏDƏ HESABATLARIN TƏQDİM EDİLMƏSİ

16.1. "Xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycan Respublikasının ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların müəyyən edilməsi ilə bağlı hərtərəfli yoxlama prosedurlarının həyata keçirilməsi Qaydaları"na əsasən vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan hesabatlar Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə əsasən təyin olunmuş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi hədlərdə və qaydada birbaşa və ya müvafiq icra hakimiyyəti orqanı vasitəsilə həmin xarici dövlətlərin səlahiyyətli orqanlarına verilir.
16.2. Xarici dövlətlərin fiziki şəxslərinin Azərbaycan Respublikasının ərazisində həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatların müəyyən edilməsi ilə bağlı hərtərəfli yoxlama prosedurlarının həyata keçirilməsinə əsasən hesabat verən maliyyə institutu fiziki şəxslərin hesabat verilməli hesablarının müəyyənləşdirilməsi məqsədi ilə müştəridən zəruri olan özünüqiymətləndirmə sənədi və *W-8 BEN (W-8 BEN-E) və W-9* formaları tələb edilir.
16.3. Hesab açmaq üçün müraciət etmiş müştəri tərəfindən formalardan müvafiq olanı təqdim edilmədikdə Bank tərəfindən hesabın açılmasından imtina oluna bilər.

## 17.FORS-MAJOR HALLARINDA MÜQAVİLƏNİN İCRASI

17.1. Müqavilənin icrasına qarşısıalınmaz qüvvə təsir göstərərsə, Bank Müqavilə üzrə öhdəliklərinin yerinə yetirilməməsinə görə məsuliyyət daşımır.
17.2. Qarşısıalınmaz qüvvənin təsirinə Bank tərəfindən nəzarət edilməyən, onun səhvi və ya laqeydliyi nəticəsində baş verməyən, qabaqcadan nəzərdə tutulması mümkün olmayan hadisələr, o cümlədən, müharibə, ictimai iğtişaş, yanğın, zəlzələ, vulkan, daşqın, tufan, epidemiya, pandemiya, epizotiya, karantin, dövlət və hökumət qərarları və bu kimi digər hallar aid edilir. Hər hansı hadisə fors-major kimi, yalnız səlahiyyətli dövlət orqanlarının rəsmi qərarına əsasən tanınır.
17.3. Fors-major halları baş verdiyi gündən etibarən Müqavilə üzrə icra müddətinin axımı dayandırılır və axım bu hallar aradan qalxdıqdan sonra bərpa edilir.

## 18.MÜBAHİSƏLƏRİN HƏLLİ

Bu müqavilənin icrası ilə əlaqədar tərəflər arasında yaranmış mübahisələr qarşılıqlı razılıqla həll edilir. Qarşılıqlı razılıqla həll edilməyən mübahisələr Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə müvafiq olaraq Azərbaycan Respublikasının müvafiq məhkəmələri vasitəsilə həll ediləcəkdir.

## 19.YEKUN MÜDDƏALAR

19.1. Bu Standart Şərtlər və onun çərçivəsində bağlanan Müqavilələrin hər hansı müddəasının etibarsızlığı, bu Standart Şərtlərin və onun çərçivəsində bağlanan Müqavilələrin digər müddəalarının etibarsızlığına səbəb olmur.
19.2. Bu Standart Şərtlərin və onun çərçivəsində bağlanmış Müqavilələrin qüvvədə olma müddətinin qurtarması Tərəfləri həmin müddət qurtarana qədər yol verilmiş pozuntulara görə məsuliyyətdən azad etmir.

**BANKIN REKVİZİTLƏRİ:**

**“Unibank” Kommersiya Bankı**
**Açıq Səhmdar Cəmiyyəti**
Ünvan: Bakı ş, Nəsimi r-nu, R.Behbudov
küç., məhəllə 384, ev 55;
Azərbaycan Respublikası Mərkəzi Bankı
Hesablaşmalar Departamentində
AZ46NABZ01350100000000015944
saylı müxbir hesabı,
kod 505754,
SWIFT UBAZAZ22
VÖEN 1300017201